**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 458
10.33864/2617-751X.2026.v9.i2.13-31

# EURASIA AS A MODEL OF CULTURAL INTEGRATION: REAL AND POTENTIAL OPPORTUNITIES

**Rabiyyat Aslanova***

**Abstract.** The article examines Eurasia as a model of cultural integration, providing a comprehensive analysis of its historical stages of formation, philosophical and conceptual foundations, civilizational characteristics, and its real and potential opportunities for the twenty-first century. The author presents cultural integration as an integral component of the historical development of humanity and traces the complex evolutionary path of this process from primitive societies to the modern digital age. One of the central ideas of the article is that cultural integration is realized not through assimilation or confrontation, but through the principles of dialogue, synthesis, and “configurative compatibility.” From this perspective, the Eurasian model of cultural integration is presented as a unique civilizational phenomenon based on the mutual enrichment of cultures. The article characterizes Eurasia not merely as a geographical space, but as a multilayered cultural, historical, and spiritual ecosystem. It emphasizes that, unlike European and Asian civilizations, Eurasian culture has a synthetic character and is grounded in cultural pluralism, tolerance, and dialogue. In conclusion, the article substantiates that Eurasia, as a model of cultural integration, represents not only a legacy of the past but also possesses conceptual, analytical, and practical potential for contemporary and future global development processes. The Eurasian model is presented as an alternative civilizational path of development based on the principles of cultural dialogue, unity in diversity, and sustainable coexistence.

**Keywords:** cultural integration, Eurasia, cultural dialogue, intercivilizational relations, globalization, cultural pluralism, coexistence model, Eurasianism, cultural ecosystem, Turkic world

---

* Doctor of Philosophical Sciences, Professor,
Head of the Department of Philosophy and Cultural Studies, Baku State University; Baku, Azerbaijan
E-mail: rabiyyat.aslan@mail.ru
https://orcid.org/0009-0001-3068-033X
**To cite this article:** Aslanova, R. [2026]. EURASIA AS A MODEL OF CULTURAL INTEGRATION: REAL AND POTENTIAL OPPORTUNITIES. *“Metafizika” journal, 9*(2), pp.13-31.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.13-31
***Article history:***
**Received**: 30.09.2025 **Revised**: 27.10.2025 **Accepted**: 25.05.2026 **Published**: 15.06.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 458
10.33864/2617-751X.2026.v9.i2.13-31

# ЕВРАЗИЯ КАК МОДЕЛЬ КУЛЬТУРНОЙ ИНТЕГРАЦИИ: РЕАЛЬНЫЕ И ПОТЕНЦИАЛЬНЫЕ ВОЗМОЖНОСТИ

**Рабият Асланова***

**Абстракт.** Статья рассматривает Евразию как модель культурной интеграции, предоставляя комплексный анализ исторических этапов её формирования, философских и концептуальных основ, цивилизационных особенностей, а также реальных и потенциальных возможностей для XXI века. Автор представляет культурную интеграцию как неотъемлемый компонент исторического развития человечества и прослеживает сложный эволюционный путь этого процесса от первобытных обществ до современной цифровой эпохи. Одной из центральных идей статьи является то, что культурная интеграция реализуется не через ассимиляцию или конфронтацию, а через принципы диалога, синтеза и «конфигуративной совместимости». С этой точки зрения, евразийская модель культурной интеграции представлена как уникальное цивилизационное явление, основанное на взаимном обогащении культур. Статья характеризует Евразию не просто как географическое пространство, а как многослойную культурную, историческую и духовную экосистему. Подчеркивается, что, в отличие от европейской и азиатской цивилизаций, евразийская культура имеет синтетический характер и основывается на культурном плюрализме, терпимости и диалоге. В заключение статья доказывает, что Евразия как модель культурной интеграции представляет собой не только наследие прошлого, но и обладает концептуальным, аналитическим и практическим потенциалом для современных и будущих процессов глобального развития. Евразийская модель представлена как альтернативный цивилизационный путь развития, основанный на принципах культурного диалога, единства в многообразии и устойчивого сосуществования.

**Ключевые слова:** культурная интеграция, Евразия, культурный диалог, межцивилизационные отношения, глобализация, культурный плюрализм, модель сосуществования, евразийство, культурная экосистема, тюркский мир

---

* Доктор философских наук, профессор,
Заведующий кафедрой философии и культурологии Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: rabiyyat.aslan@mail.ru
https://orcid.org/0009-0001-3068-033X

**Цитировать статью:** Асланова, Р. [2026]. ЕВРАЗИЯ КАК МОДЕЛЬ КУЛЬТУРНОЙ ИНТЕГРАЦИИ: РЕАЛЬНЫЕ И ПОТЕНЦИАЛЬНЫЕ ВОЗМОЖНОСТИ. *Журнал «Metafizika», 9*(2), c.13-31.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.13-31
***История статьи:***
**Поступила**: 30.09.2025 **Переработана**: 27.10.2025 **Принята**: 25.05.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 9, issue 2, serial 38, 2026. pp.13-31*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
*AcademyGate Publishing (ISNI: 0000000514175052)*

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 458
10.33864/2617-751X.2026.v9.i2.13-31

# AVRASİYA MƏDƏNİ İNTEQRASİYA MODELİ KİMİ: REAL VƏ POTENSİAL İMKANLAR

**Rəbiyyət Aslanova***

**Abstrakt.** Məqalə Avrasiyanı mədəni inteqrasiya modeli kimi nəzərdən keçirərək onun tarixi formalaşma mərhələlərini, fəlsəfi-konseptual əsaslarını, sivilizasion xüsusiyyətlərini və XXI əsr üçün real və potensial imkanlarını geniş şəkildə təhlil edir. Müəllif mədəni inteqrasiyanı bəşəriyyətin tarixi inkişafının ayrılmaz tərkib hissəsi kimi təqdim edir və bu prosesin ibtidai cəmiyyətlərdən başlayaraq müasir rəqəmsal dövrə qədər keçdiyi mürəkkəb təkamül yolunu izləyir. Məqalənin əsas ideyalarından biri mədəni inteqrasiyanın assimilyasiya və ya qarşıdurma deyil, dialoq, sintez və “konfiqurativ uyğunluq” prinsipləri əsasında gerçəkləşməsidir. Bu baxımdan Avrasiya mədəni inteqrasiya modeli mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə əsaslanan unikal sivilizasion fenomen kimi təqdim olunur. Məqalə Avrasiyanı yalnız coğrafi məkan deyil, həm də çoxqatlı mədəni, tarixi və mənəvi eko-sistem kimi xarakterizə edir. Avrasiya mədəniyyətinin Avropa və Asiya sivilizasiyalarından fərqli olaraq sintez xarakteri daşıdığı, mədəni plüralizmə, dözümlülüyə və dialoqa əsaslandığı vurğulanır. Nəticə etibarilə, məqalə Avrasiyanın mədəni inteqrasiya modeli kimi yalnız keçmişin irsi deyil, həm də müasir və gələcək qlobal inkişaf prosesləri üçün konseptual, analitik və praktik potensiala malik olduğunu əsaslandırır. Avrasiya modeli mədəni dialoq, müxtəlifliklərin vəhdəti və davamlı birgəyaşayış prinsiplərinə söykənən alternativ sivilizasion inkişaf yolu kimi təqdim olunur.

**Açar sözlər:** mədəni inteqrasiya,  Avrasiya, mədəni dialoq, sivilizasiyalararası münasibətlər, qloballaşma, mədəni plüralizm, birgəyaşayış modeli, Avrasiyaçılıq, mədəni eko-sistem, Türk dünyası

* Fəlsəfə elmləri doktoru, professor,
BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri; Bakı, Azərbaycan
E-mail: rabiyyat.aslan@mail.ru
https://orcid.org/0009-0001-3068-033X

**Məqaləyə istinad:** Aslanova, R. [2026]. AVRASİYA MƏDƏNİ İNTEQRASİYA MODELİ KİMİ: REAL VƏ POTENSİAL İMKANLAR. *“Metafizika” jurnalı, 9*(2), səh.13-31.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.13-31
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 30.09.2025 **Yenidən baxılıb**: 27.10.2025 **Təsdiqlənib**: 25.05.2026 **Dərc olunub**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**1.Giriş**

Minillikləri adlayıb XXI əsrə qədəm qoyan bəşəriyyət tarixi təcrübələrdən fərqli yeni proseslərlə qarşılaşır. Sıxlaşmış zaman və surət əsrində yaşayan insanlar, xalqlar, mədəniyyətlər, sivilzasiyalar arasında mövcud olan qarşılıqlı münasibətlərin prinsipial olaraq yeni səviyyəsinin təməli qoyulmaqdadır. Dünyanın inkişaf parametrləri baxımından müşahidə olunan "informasiya texnologiyaları", "rəqəmsal kommunikasiyalar", "texnogen sivilizasiya" dövrü adlanan bu köklü transformasiyalar şəraitində tamamilə fərqli problemlərin ortaya çıxması da yaşadığımız mərhələni səciyyələndirən və bigəyaşayış modelinin yaranmasını zərurətə çevirən amillər sırasındadır.

Bəşəriyyətin tarixində birgəyaşayış və mədəni inteqrasiya arzusu müxtəlif mədəniyyətlərdə, müxtəlif dövrlərdə özünü göstərmişdir. İstər Şərqin, istərsə də Qərbin görkəmli mütəfəkkirləri bəşəriyyətin gələcək taleyinin məhz bu qarşılıqlı ünsiyyətdən, təmasdan, dostluq və həmrəylikdən asılı olduğunu qeyd edirdilər. Ədalətli və harmonik birgəyaşayış ideyalarını tərənnüm edən filosoflar bunu əbədi ehtiyac adlandırırdılar. Mədəni dialoq və qarşılıqlı ünsiyyət, mədəniyyətlərarası əməkdaşlıq prinsipinə əsaslanan sosial-mədəni inteqrasiya modeli axtarışı tarixi zərurət olub, XXI əsrin çağrışlarına cavabdır.

Mədəni inteqrasiya tarix boyu müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı təması, ortaq dəyərlərin uyğunlaşması və sintezi nəticəsində formalaşmış çoxsəviyyəli sosial hadisədir. Mədəni inkişafın bir pilləsi olan bu proses tarix boyu xalqların inkişaf mərhələsinə uyğun şəkildə gerçəkləşmişdir. İbtidai cəmiyyətlərin pre-inteqrativ xarakterli qarşılıqlı yaxınlaşma formasından günümüzün rəqəmsal və transsivilizasion mərhələsinə qədər mürəkkəb təkamül yolu keçmiş bu proses hər mərhələdə özünəməxsus xarakterik xüsusiyyətlər kəsb etmişdir.

İbtidai cəmiyyətlərdə bioloji-sosial zərurət kimi meydana çıxan mədəni inteqrasiya növbəti mərhələdə - qədim sivilizasiyalar dövründə şəhər mədəniyyətinin yaranması, hüquq sistemlərinin formalaşması ilə strukturlaşma mərhələsinə qədəm qoymuşdur. Orta əsrlərdə həm Şərqdə, həm də Qərbdə mədəni inteqrasiya dini model şəklini almış, güclü və geniş imperiyaların yaranması ilə mədəni məkanların genişlənməsi şəraitində mədəni inteqrasiya siyasi idarəetmə mexanizmləri ilə zənginləşmişdir. Böyük imperiyalar daxilində lokal mədəniyyətlərin mövcudluğu, onlar arasında qarşılıqlı təmas plüralizm prinsipinə əsaslanan modeli formalaşdırmışdır. XVIII-XIX əsrlərdə mədəni inteqrasiya modelində milli identiklik, mədəni homogenləşmə - müxtəlifliklərin vahid modelə yaxınlaşması aparıcı amilə çevrildi. Elmi və intellektual inteqrasiya maarifçilik ideyalarının geniş yayılmasına zəmin yaradaraq, elmi ünsiyyət və mədəni dialoq çağrışlarını gücləndirdi. XX əsr mədəni inteqrasiya probleminə ciddi korrektivlər etməyə müvəffəq oldu. Bəşəriyyətin ümumtaleyi üçün məsuliyyətin lokal səviyyədən

qlobal səviyyəyə yüksəlməsi, İkinici Dünya müharibəsindən sonra yaranan beynəlxalq təşkilatların mədəniyyətlərarası dialoq və anlaşmanın əsas prioritet elan etməsi, qlobal əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi tələbi mədəni inteqrasiya sahəsində irəli atılan ən vacib addım idi. XX əsrdə mədəni inteqrasiya probleminə sərgilənən yeni baxış multikulturalizm və dialoqa əsaslanan mədəni inteqrasiya modelinin perspektivinə böyük inam ifadə edirdi [İsmayılov, 2011].

XXI əsrdə mədəni inteqrasiya modelinin formalaşması, qlobal əlaqələrin intensivləşməsi, qlobal və lokal mədəniyyətlərin sintezinə yönələn meyillərin güclənməsi, dinamizmi, mədəni hibridləşmə prosesinin genişlənməsi şəraitində baş verir. Rəqəmsal və virtual mədəni məkanda yeni identiklik formaları yaranır, ənənəvi sosial bağlar zəifləyir, rəqəmsal mədəniyyət yeni simvolik dil yaradır, mədəni ünsiyyət, inteqrasiya virtual məkana köçür.

Bu gün tədqiqatçılar tarixən formalaşmış və günümüzə qədər gəlib çatmış mədəni inteqrasiya modellərinin əsaslandığı dəyərləri, mədəniyyətlərarası əməkdaşlıq mexanizminin müsbət cəhətlərini araşdıraraq yeni sivilizasiya layihələrinə dair ideyalar irəli sürürlər. Bu layihələrin kökləri xalqların qoruyub saxladığı mədəni-tarixi irsdə öz əksini tapır. Yeni sivilizasiya layihələri yeni mədəniyyət məkanlarıdır. Müasir dövrdə dünyada gerçəkləşən geosiyasi, qlobal-iqtisadi və mədəni proseslər böyük mədəni sivilizasiya məkanlarının formalaşmasına səbəb olur. Avrasiya, Türk dünyası, İslam dünyası, Avropa Birliyi kimi məkanlarda formalaşan mədəni inteqrasiya modelinin xüsusiyyətlərinə yenidən baxılması, mədəni inteqrasiya axtarışında tarixi irsdən bəhrələnilməsi günün tələbinə çevrilmişdir. Mədəni inteqrasiya modelinin müxtəlif paradiqmalar baxımından öyrənilməsi, təhlükəsizlik və cəmiyyətin davamlı inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Müasir mədəni inteqrasiya modeli əvvəlkiləri inkar etmir, onları yenidən konfiqurasiya edib reallığa uyğunlaşdırır, çoxsəviyyəli və sintez xarakterli strukturlar yaradır. Klassik və müasir mədəni inteqrasiya modelləri bir-birini inkar edən modellər kimi qiymətləndirilə bilməz, çünki yeni modellər əvvəlkilərin normativ nüvəsini qoruyaraq onları yeni sivilizasiyon kontekstdə yenidən formalaşdırır. Mədəni inkişaf və təkamülün dialektikası, daima keçmişdən indiyə və indidən gələcəyə yönəlir [Бицилли, 1993; Ерасов, 2002].

**2.Mədəni inteqrasiya müxtəlif etnokulturoloji sistemlərin bir-biri ilə qarşılıqlı ünsiyyəti, bəhrələnməsi, zənginləşməsini nəzərdə tutan mürəkkəb dinamik prosesi kimi**

Mədəni inkişafın bir pilləsi hesab olunan mədəni inteqrasiya qədim dövrlərdə spontan, təbii və çox vaxt iqtisadi-ticarət yolları vasitəsilə formalaşan bir proses kimi ortaya çıxmışdır. Etnoslar, xalqlar arasında münasibətlər, köçərilik, müharibələr, dinlərin yayılması çoxsaylı xalqların imperiya sərhədləri içərisində mövcudluğu mədəni inteqrasiyanın

hərəkətverici qüvvəsi sayılır. Mesopotamiya, Misir, Çin, Hindistan, İranda meydana gələn mədəni-tarixi dəyərlər, yazı sistemləri, dini inanclar, dövlətçilik ənənələri, elmi biliklər, sənət növləri müxtləlif xalqlar arasında yayılaraq inkişaf etmiş, zənginləşərək nəsildən-nəslə ötürülüb, qorunub saxlanılmışdır.

Açıq sosial sistem olan mədəniyyət təcrid olunmuş şəkildə öz varlığını davam etdirə bilməz. Avrasiya mədəni inteqrasiya modelinin də tarixi bu mövqedən dəyərləndirilməlidir. Skiflər, sarmatlar, hunlar, monqollar və digər köçəri tayfalar bu inteqrasiya prosesinin ən dinamik daşıyıcıları olaraq tanrıçılıq, şamanizm, zərdüştlük, xristianlıq, manixeyçilik və islamın yayılmasında fəal iştirak edərək inteqrasiya məkanının sərhədlərini genişləndirmiş, özünəməxsus kommunikasiya magistralları yaratmışlar. Oturaq xalqların inzibati-iqtisadi və elmi ənənələrinin köçəri toplumlar tərəfindən mənimsənilməsi Avrasiyada ikiqat sivilizasiya modeli yaratmışdır. Lakin proses heç də rəvan getməmiş, mədəniyyətlər öz strukturuna uyğun gələn xarici elementləri qəbul etmiş, dağıdıcı və uyğunsuz elementlərin qəbuluna imkan verməmişlər. Türk ruhuna, türk dünyagörüşünə uyğun gəlməyən buddizmin türklər arasında yayıla bilməməsi bu qəbildən olan səbəblərdəndir [Korkmaz, 2022].

Hər bir etnokulturoloji sistemə - mədəniyyətə minilliklər boyu formalaşmış özünəməxsus daxili dinamika ritmi xasdır və onun hərəkətverici qüvvələri tamamilə fərqlidir. Mədəniyyətdaxili dinamika hər bir lokal mədəniyyətin tarixən inkişaf etmiş qanunauyğunluqlarına tabedir. Bu da öz ifadəsini həmin mədəniyyətin özünəməxsus xüsusiyyətlərində, fərqli cəhətlərində tapır. Hər bir etnosa, millətə xas özəlliklərin digər mədəniyyət daşıyıcıları tərəfindən etiraf edilməsi müxtəliflik və fərqlilik göstəricisini adlayaraq mədəni müxtəliflik səviyyəsinə yüksəlməsi uzun, ziddiyyətli və mürəkkəb bir prosesdir. Fərqli xüsusiyyətlər tarix boyu yalnız mədəniyyətlərin təbii mahiyyət əlaməti kimi deyil, həm də onları ayıran ziddiyyət, qarşıdurma və özəllik kimi başa düşülməkdədir. Kütləvi şüurda həmişə öz əksini tapan ən müxtəlif etnosentrizm təzahürlərinin səbəblərindən biri də budur. Mədəniyyətlərdən bəhrələnmə və qarşılıqlı ünsiyyət inteqrasiya prosesinə təkan verməklə yanaşı, paralel olaraq etnik spesifikanın mühafizəsinə yönələn etnik şüurda özünü qoruma hissi yaradır [Хантингтон, 2003].

Mədəni inteqrasiya prosesində məkan xüsusi önəm daşıyır. Mədəni inteqrasiya məkanı müxtəlif etnokulturoloji, sivilzasion, dini, sosial sistemlərin yaxınlaşması nəticəsində formalaşır. Bəşəriyyətin tarixi taleyi boyu mədəni inteqrasiya məkanlarının formalaşması prosesini yaşamışdır. Müxtəlif qitələr, ölkələr arasında yalnız ticarət, iqtisadi sahədə deyil, həmçinin elmi, mədəni, ictimai, siyasi, diplomatik sahələrdə də əlaqələr qurulmuş, qarşılıqlı ünsiyyət formalaşmışdır. Əsrlər boyu mədəniyyətlər bir-biri ilə üzləşmiş,

"nəfəs-nəfəsə" qalmışlar. Nəticədə mürəkkəb, çoxsəviyyəli, çoxqatlı mədəniyyət məkanları formalaşmış, mədəni inteqrasiya modelləri yaranmışdır. Konkret olaraq Avrasiya mədəni inteqrasiya məkanından bəhs edərkən bu məkanın formalaşmasında mühüm rol oynayan amillər nəzərə alınmalıdır. Buraya coğrafi-strateji amillər – Bozqır çöllərində sərbəst hərəkət edən köçəri tayfaların yüksək mobiliyi, fərqli mədəniyyətlərin eyni məkanda assimilyasiyaya məruz qalmadan mövcudluğu Şərq-Qərb əlaqələrinin qurulmasında rol oynayan İpək yolu, ticarət şəbəklərinin artması, ideya axınlarının sürətlənməsi, dini-fəlsəfi sistemlərin yayılması üçün münbit zəminin mövcudluğu və s.daxildir. Böyük İpək yolu Avrasiya mədəni inteqrasiyanın ən fundamental amillərindən biridir. Bu yol ideyalar, inanclar, sosial təcrübənin dövriyyəsinə şərait yaratmış, açıq mədəni axınlar sistemi formalaşdırmışdır [Мещеряков, 1931].

Avrasiya mədəni inteqrasiya modeli eramızdan əvvəlki minilliklərdə böyük və geniş məkanda mövcud olan çoxsaylı mədəniyyətlərin qarşıdurma deyil, komplimentar sintezi əsasında formalaşmış sistemidir. Bu modelin özəlliyi Avrasiyanın tarixi-coğrafi çoxqatlılığı, köçəri və oturaq mədəniyyətlərin qarşılıqlı bütövləşməsi və sivilzasiyon müxtəlifliyi şəraitində vahid struktur yaratmasıdır. Avrasiyada sərt sivilzasiya sərhədləri olmadığından köçəri siyasi sistem ilə oturaq şəhər mədəniyyətinin özünəməxsus sintezi yaranmış, nəticədə çoxsaylı mədəniyyət nüvələrinin - Altay, Sibir, Türk nüvəsi, Çin, Slavyan, İran sivilizasiyalarının yaxınlaşması nəticəsində bu nüvələrin bir-birindən bəhərələnərik polifonik sivilizasiya yaranmışdır [Лушников, 2008], [Пономарева, 1992].

Avrasiya mədəni inteqrasiya modeli mədəniyyətlərin qarşıdurmasından deyil, sintezindən, formalaşmasından, konfiqurativ uyğunlaşmasından doğan unikal model kimi tarix səhnəsinə daxil olmuşdur. Bu model assimilyasiyanı qəbul etmir, mədəni elementlərin "konfiqurativ uyğunluq" qaydasına əsaslanır.

**3.Müasir dövrdə mədəni inteqrasiya modelləri araşdırmaçı alimlərin diqqət mərkəzində saxladığı problemlərdəndir**

Sivilizasiyalar arasında qarşılıqlı münasibətlərin perspektivi, yeni inteqrasiya məkanları və mədəni inteqrasiya modellərinə həsr olunmuş tədqiqatların sayı artmaqdadır. Bəşəriyyətin gələcək taleyində, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun roluna xüsusi önəm verən alimlər, siyasətçilər, filosoflar, iqtisadçılar, kulturoloqlar beynəlxalq konfrans və simpoziumlarda problemin aktuallığını gündəmə gətirir, Avrasiyanın mədəni inteqrasiya məkanı və özünəməxsus interqasiya modeli kimi nəzərdən keçirilməsini, Avrasiyanın mədəni eko-sistem kimi unikal cəhətlərinin tədqiqi vacibliyini xüsusi qeyd edirlər [Бердяев, 1997].

Bəşəriyyətin ümumi taleyi üçün məsuliyyət hissinə əsaslanan, birgəyaşayış normalarının formalaşmasına zəmin yaradan mədəni inteqrasiya prosesinin rolu əvəzolunmazdır. Bu baxımdan Avrasiyanın mədəni inteqrasiya məkanı kimi nəzərdən keçirilməsi, bu inteqrasiya prosesinin tarixi kökləri, mədəni eko-sistem kimi unikal cəhətləri xüsusi tədqiqat obyekti olamağa layiqdir. Avrasiya mövzusuna həsr olunmuş əsərlərdə də, müasir dünya sivilizasiyasının gələcək inkişafını dərk etməyə imkan verən konseptual-analitik potensial tam deyil. Bu potensialın yaşadığımız qlobal gerçəklik kontekstində təhlilinə xüsusi ehtiyac duyulur.

Bu gün yeni dinlər, yeni mədəniyyətlər yaratmağa ehtiyac yoxdur. Çünki dünyadakı istənilən xalqın dini etiqad sistemində, mədəniyyətində, dünyagörüşündə baş verən tarixi dəyişiklikləri həm təhlil etməyə, həm də onlardan düzgün nəticə çıxarmağa əsas verən böyük potensial vardır.

Əsas məsələ, məhz bu sərvət və dəyərlərin müasir mərhələnin ümumbəşəri prinsiplərini və XXI əsrin mədəni-sosial ahəngini formalaşdırmaq üçün malik olduğu böyük potensialdan çıxış etməkdir. Həyatımızın indiki mərhələsini və gələcəyini məna və ləyaqətlə yaşamaq üçün tələb olunan münasibətlərə dair hər bir mədəniyyətdə təsəvvürlər sistemi mövcuddur. *Bunların ən mühümü "dünyanın müxtəlifliyin vəhdəti kimi var olması" prinsipidir.* [Ерасов,2002]

Dünyadakı bütün ölkələrin, müxtəlif səviyyələrdə qarşılıqlı əlaqə və münasibətlərini daha da sürətləndirən, onu vahid sistemə çevirən qloballaşma prosesi universal və unikallığın bir-birinə nisbəti problemini ön cərgəyə çıxarmışdır. Bu da təbii olaraq planetdəki xalqları narahat edən meyillərə qarşı dura biləcək ideya, qüvvə, amil və formaların səfərbər edilməsinə zərurət yaratmışdır. Bir şey aydındır ki, biz dünya inkişafının mövcud modelinin kökündən dəyişilməsi dövründə yaşayırıq və bu dövrün mahiyyətini bir cümlə ilə ifadə etsək deyə bilərik: Bəşəriyyət çoxçalarlı, çoxqütblü, müxtəlifliklərin ahəngdar inkişafını təmin edə biləcək bir dünya düzəninə qədəm qoyur.

Şübhəsiz ki, mövcud reallıq əvvəlki bir, ya iki qütblü, texnogen sivilizasiyanın inkişafının, sadəcə, davamı ola bilməz. Bu baxımdan gündəmdə duran əsas məsələ təşəkkül tapmaqda olan, müasir tarixin çoxçalarlığmı, rəngarəngliyini adekvat ifadə edən, qlobal və lokal səviyyələrdə, praktiki ictimai-mədəni birgəyaşayış formalarının müəyyən edilməsidir. Öz növbəsində bu məsələ də vəhdət və müxtəlifliyin elmi, fəlsəfi prinsiplərin nəzəri konsepsiyasının işlənməsini tələb edir.

Nəzərə almaq lazımdır ki, Avrasiya sözünü gündəmə, dilimizə gətirərkən onun əhatə etdiyi leksik-semantik müstəvinin ən müxtəlif təsəvvür, baxış və mövqelərlə yüklənməsini nəzərdən kənara qoymaq olmaz. Bu leksik-semantik müstəvi zamanla ideoloji-siyasi, millətçi, hətta mifoloji məzmunlar və mənfi çalarlar kəsb etmiş, ya da təhrif olunmuşdur. Avrasiyanın məkan, zaman və

inkişaf yolu kimi aspektlərinin vəhdətdə təhlili üzərində öz fikirlərimizlə bölüşmək istəyirik [Feyziyev, 2011].

Müasir elmi idrak inkişaf problemlərini araşdırarkən zaman və məkan anlayışlarına bir-biri ilə qarşılıqlı əlaqədə yanaşmağı əsas hesab edir. Bu anlayış və ya amillərin birbirindən təcrid edilməsi, yaxud onlardan birinin mütləqləşdirilməsi gerçək tarixi proseslərin qeyri-adekvat qiymətləndirilməsinə səbəb olur. Bir halda deyilir: *“Avropa və Asiya problemi, hər şeydən əvvəl, coğrafi məkan, landşafı problemidir”*, digər halda deyilir. “*Avrasiya özəl mədəni-sosial birlik kimi min beş yüz illik zaman sınağından çıxmışdır, onun Qərblə inteqrasiyası problematikdir*” və ya üçüncü halda *“Avrasiyanın özəl, fərqli: ayrıca bir inkişaf yolu vardır*” kimi mövqelər üstünlük təşkil edir [Лушников, 2008], [Мещеряков, 1931]

Bir daha xatırladıram ki, sadalanan amillərin sintezdə deyil, fraqmentar müstəvidə təhlili məntiqi sonluq kimi, Avrasiyaçılıq cərəyanında, dünyaya açıq olmaq, Qərbdən təcrid olunmaq, geosiyasi uyğunlaşma, yaxud Qərb yoluna üz tutmaq, hətta ekspansionist-neoimperiya mövqeləri kimi diametral müxtəlif baxışların formalaşmasına səbəb olmuşdur. Zənnimcə, Avrasiya və dünya, eləcə də Avropa və Asiya mövzusunu sistemli və bütövlükdə nəzərdən keçirmək bu arzuolunmaz təzahürlərin qarşısını almağa imkan verir.

**4.Əvvəlcə məkan faktoru barədə**

Avrasiya - özünün spesifik arxetipi və genotipinə malik olan ümumdünya tarixi fenomenidir. Avrasiya məkanı tarix boyu ənənəvi və liberal sivilizasiyalar arasında qərar tutmuş, bu sivilizasiyalara xass mental xüsusiyyətləri əks etdirərək unikal məkana çevrilmişdir.

Geniş coğrafi ərazini əhatə edən, çoxmərkəzli, dinamik, qarşılıqlı təsirlərə mədəni ünsiyyətə açıq eko-sistem olan Avrasiya yer üzünün ən böyük materikidir. Adalarla birlikdə 54.750.000 mln. kvadrat kilometr olan bu materik, dünyanın quru ərazisinin 36 % təşkil edir.Dünya əhalisinin 4/3 hissəsi 4.3.mlrd insan bu nəhəng məkanda yaşayır. Avrasiya məkanına daxil olan ölkələrin sayı 94-dür. Zamanla materikə çox adlar verilmişdir Qədim Finikiyalılar bu materikin şərq hissəsini “Asu”( gündoğan), Qərb hissəsini isə “Yerab” adlandırırdılar.

Asiya və Avropa qitələrinin, daxili bağlılığı məşhur alimlərin əsərlərində öz əksini tapmışdır. Çoxsaylı elmi-geoloji ekspedisiyaların iştirakçısı olan bu araşdırmacılar Avrasiyanın materik olması fikrini əsaslandırmağa müvəffəq olmuşdur. Aleksandr Fon Humbolt bu qitələr arasındakı münasibətləri, sərhədləri tədqiq edərək belə qənaətə gəlmişdir ki, Avrasiya materiki tektonik platforma üzərində formalaşmış, bu qitələr arasında siyasi-konvensional – şərti ənənə, razılaşma əsasında qəbul edilmiş sərhədlər mövcuddur.

Aleksandr Fon Humbolt Avropa və Asiyanın bir-biri ilə sıx bağlı olduğu bu nəhəng məkanı Avrasiya adlandırırdı. Bu geniş, təbiət baxımından sərhədsiz,

quru, dağ sistemlərinə malik fərqli iqlim bölgələri olan bir məkanda tarix və mədəniyyət, dünyagörüşü, dini etiqad sistemləri, dillər fərqlənsə də burada yaşayan xalqları təbiət yaxınlaşdırmış, birgə yaşayışa məhkum etmişdir. A.F. Humbolt bu məkanı *"Köhnə Dünyanın"* kontinental nüvəsi adlandırırdı. O, Avrasiyanın bozqırlarını türklərin, monqolların və digər köçəri xalqların tarixini formalaşdıran xüsusi təbii zona kimi dəyərləndirirdi. Məşhur Avrasiyaçı alim P.Savitski A.F. Humboltun fikirlərini dəyərləndirərək yazırdı ki, "*Humbolt Avrasiyanın həqiqi, fiziki xəritəsini yaratdı və onu bütöv dünya kimi göstərdi*". A.F.Humbolt "Avrasiya terminindən müasir geosiyasi anlamda istifadə etməsə də, onun konseptual yanaşması Avrasiya ideyasının sonrakı elmi və intellektual inkişafına, o cümlədən, XX əsrdə yaranmış "Avrasiyaçılıq" cərəyanının formalaşmasına təsir göstərmişdir. Alim öz əsərlərində təbiətin insan mədəniyyətinə təsirini xüsusi vurğulayırdı. O, Avrasiyanın bozqır zonalarını, sərt kontinental iqlimini, bu məkanın oroqrafiq quruluşunu, burada yaşayan köçəri və oturaq xalqların həyat tərzinin formalaşmasına təsirini vacib amil saymışdır. Bu yanaşma daha sonralar Avrasiyaçıların "landşaft- mədəniyyət" əlaqəsi konsepsiyasının təməlinə çevrilmişdir. A.Humboltun köçəri mədəniyyətinin coğrafi əsaslandırılmasına dair düşüncələrinə görə bu mürəkkəb eko-sistem təkcə təbiət hadisəsi deyil, həm də türklər və monqollar kimi köçəri xalqların siyasi-mədəni tarixinin təbii əsaslarını təşkil edir [İsmayılov, 2011; Korkmaz, 2022].

Digər alman alimi Rosse Qustav 1829-cu ildə A.Humboltla birlikdə Ural və Sibirdə gerçəkləşdirdikləri ekspedisiyaların nəticəsi olaraq Avrasiyanı mürəkkəb eko-sistem kimi dəyərləndirmişdir. *Eko-sistem sadəcə məkan deyil o, mədəniyyətlərin bir-biri ilə bağlılığını təmin edən ontoloji məkandır, tarazlıq, uyğunluq fəlsəfəsidir.* Uraldan Altaya, Xəzər dənizinə qədər olan torpaqları tədqiq edən alimin gəldiyi qənaətlər olduqca qiymətlidir. O, faktiki olaraq bu böyük regionun elmi xəritəsini hazırlamış, materikin coğrafi-geoloji mənzərəsini təsvir etməyə müvəffəq olmuşdur.

Avstriyalı alim Eduard Zyuss (1831-1914) 1883-cü ildə toplanmış elmi məlumatlara əsaslanan "Avrasiya" terminini elmi dövriyyəyə daxil etdi. O, Avrasiyanı "planetin tektonik" baxımdan ən mürəkkəb və qlobal prosesləri daşıyan qitəsi kimi təsvir edirdi. E.Zyuss "Avrasiyanın bütövlüyü" ideyasının banisidir. Bu ideyaya əsasən Avrasiya meqa-struktura, spesifik arxietipinə və genotipinə malik olan fenomendir. Avrasiyada yaşayan türk, monqol, slavyan, uqor, fin və digər xalqlar vahid birlik şəklində yaşamaqda davam edir. Bu vahid sistem bütövlük, tarixi-taleyin ümumiliyi, inteqrasiya və dialoqların təməli prinsplərini formalaşdırmışdır. Bu məkanın vazgeçilməz xüsusiyyəti çoxçalarlılıq və müxtəliflikdir. Çoxsaylı mədəniyyətlər, dinlər, dillərin mövcudluğu Avrasiyanı mədəniyyət məkanı kimi formalaşdırmışdır. Bu isə öz növbəsində Avropa və Asiya mədəniyyətlərindən fərqli olaraq coğrafi, tarixi,

etnomədəni baxımdan özünəməxsus bir sivilizasiya tipinin formalaşmasına zəmin yaratmışdır [Мещеряков, 1931].

Avrasiya mədəniyyəti həm Avropa, həm də Asiya mədəniyyətindən fərqlidir. O, özünəməxsus sintez, uzunmüddətli mədəni qatların kompozisiyası və coğrafi müəyyənlik əsasında formalaşmış sivilizasiya modelidir. Bu sivilizasiya oturaq və köçəri mədəniyyətlərin sintezi nəticəsində yaranıb. Onun formalaşmasında türklərin hərbi-siyasi təşkilatlanma modeli, slavyanların aqrar ictimai strukturu, islam prinsipləri, şamanizmin mifik-simvolik qatları, dini plüralistik elementlər mühüm rol oynamışdır. Xarakterik cəhəti isə mədəni dözümlülük, assimilyasiya olmadan inteqrasiya prosesinin gerçəkləşməsidir. Fərqli mədəni-tarixi sivilizasiya modellərinin yaxınlaşması, qarşılıqlı təsir və sintez proseslərinə məruz qalması nəticəsində yaranan bu fenomen etnogenetik çoxqatlılığın bariz nümunəsidir. Avrasiya mədəniyyəti köçərilərin epik dünyagörüşünü, dünyaduyumunu, Şərqin ecazkar metafizikasını, Qərbin rasional düşüncə tərzini, oturaq xalqların dövlətçilik ənənələrini, hüquqi etatist prinsiplərini, fərqli dini sistemlərin yanaşı mövcudluğunu özündə birləşdirirdi. Qazax alimi S.Ayazbekova hesab edir ki, Avrasiya mədəniyyəti iki aparıcı sivilizasiyanın qovşağında formalaşdığı üçün bikultur(ikili) xarakter daşıyır, yəni, hər iki mədəniyyətin sosial normalarını, davranış modellərini, mədəni kodlarını özündə ehtiva edir. *Endogen və ekzogen faktorlar submədəniyyət şəkilində öz mövcudluğunu davam etdiri*r [Аязбекова, 2011]. Beləliklə, Avrasiya ideyası əslində mürəkkəb, kulturoloji, fəlsəfi bir konstruksiyadır. XX əsrin əvvəllərindən başlayaraq Avrasiya ideyası mədəni-fəlsəfi konsepsiyadan geosiyası təlimə çevrilməyə başladı.

Bu günə və gələcəyin sabahına aparan yollar Avrasiyada qovuşur, sözün hərfi mənasında, “bir” olmağa, “bir”ləşməyə, ən azı xalqları bir-biri ilə qonşu olmağa məcbur olur. İki məkan, “landşaft ruhu”: Asiyanın sonsuz, geniş çöl və düzənliklərinin və Avropanın sıx, dar, nisbətən kiçik coğrafiyasının landşaft ruhu yan-yana mövcud olaraq - sintez, vəhdət məkanı rolunu oynayır.

Avrasiyanın bu məkan yaxınlığı, qonşuluğu, öz növbəsində, bu coğrafiyada yaşayan xalqların mədəniyyətlərinin də, başqa sözlə, mədəni məkanların da qonşuluğunu zəruri edirdi. Avrasiya minilliklər boyu 3 əsas vektorun kəsişmə nöqtəsi olmuş: Türk, İran, Slavyan mədəniyyətlərinin inkişafı üçün münbit zəmin yaratmış, kulturoloji-fəlsəfi konstruksiya formalaşdırmışdır. Lakin bu şərtlər içərisində “Türk komponenti” aparıcı mövqeyə malik olmuşdur [Feyziyev, 2011].

Avrasiyanın mədəni matrisası coğrafi, kontinental ərazi, etnoqrafik plastların vəhdətini daşıyır. Özündə həm Avropanın, həm də Asiyanın dəyərlərinin sintezini daşıyan Avrasiya bu mədəni məkanların ahəngini - mədəni kosmosu yaratmalı olur. Göründüyü kimi, Avrasiya mövzusu coğrafi-ərazi kontekstində

məkanın spesifikası və tarixi perspektivin tələblərindən irəli gələn problemləri diqqət mərkəzinə qoyur.

Mövcud olduğu min illər ərzində Avrasiyanın nəhəng coğrafi məkanı, burada yaşayan xalqların tarixi-sosial, mədəni-mənəvi, dünyagörüş məkanlarınında özünəməxsusluğunu formalaşdırmışdır. Avrasiyanın tarixi məkanı olmadan burada yaşayan xalqların və ya burada yaşayan xalqlar olmadan Avrasiyanın tarixi yoxdur. Məhz bu qarşılıqlı bağlılıq bütün mövzuların, o cümlədən də dialoq mövzusunun əsası, predmeti və obyektidir.

"Məkan" anlayışı çoxçalarlı mənaya malikdir. Məkan-insanların ictimai-ərazi birliyinin növü olub, başqalarından, tarixi və təbii baxımdan mövcudluq şərtlərinin (mədəni, iqtisadi, siyasi, sosial münasibətlər və s.) fərqli məcmusu ilə seçilir. Məkanın ən vacib xarakteristikalarından biri onun tarixiliyidir. İstənilən məkan əvvəlki nəsillərin fəaliyyəti ilə sıx varislik təşkil edir. Məhz buna görə də inkişaf prosesi fasiləsiz olaraq məkan və zaman çərçivəsində gedir. Məkan daxilində bir sıra lokal mədəniyyətlər yanaşı mövcud olur.

Bununla əlaqədar "mədəni məkan", "mənəvi məkan" anlayışları da təşəkkül tapır, öz məzmun və mahiyyətinin başa düşülməsini tələb edir. Lokal mədəniyyətlərin vəhdəti böyük tarixi-coğrafi məkanın mədəniyyətini təşkil edir.

Avrasiyanın mədəni məkan kimi bütövlükdə təhlil etmək müasir zaman və inkişaf yolları baxımından yanaşmanı gündəmə gətirir. Məkan və zaman vəhdəti, qovşaq sivilizasiyalarda daha qabarıq təzahür edir. Sübut etməyə ehtiyac yoxdur ki, coğrafi-ərazi baxımından qovşaqda olmayan, inkişafın magistral meyillərindən bir qədər aralıda olan mədəniyyətlərdə zamanın axarı nisbətən gec duyulur, impulsların gərginliyi o qədər də hiss edilmir. Bundan fərqli olaraq, qovşaq mədəni məkanlar, tarixi proseslərin qaynar nöqtələrinə çevrilir, baş verən dəyişikliklərin ritmini, nəfəsini duyur, ona adekvat cavab vermək zərurəti qarşısında qalırlar. Avrasiyanın mədəni polifonizmi və sinkretik, ortaq dəyərləri, qovşaq sivilizasiya olması kimi amildən irəli gəlir.

Məkan və zamanda özünüdərk prosesi getmədən, məkanda ölkə və ya dövlət formalaşa bilməz.

Yaşadığımız mərhələdə, informasiya-telekommunikasiya vasitələrinin "məkan", "coğrafiya", "sərhədlər" anlayışına tamamilə yeni məzmun verdiyini nəzərə alsaq, məkan və zamanın sıx bağlılığı məsələsi daha da aktuallaşır. [Хантингтон, 2003]

İnkişafın diktə etdiyi meyillərə, dünyanın hər bir məkanında, zamanında cavab verilməsi, seçim edilməsini zərurətə çevirir. Lakin kulturoloji ədəbiyyatdan məlumdur ki, zaman və məkanın qarşılıqlı münasibəti üç səviyyədə reallaşa bilər: inteqrasiya, qarşıdurma-təcridolunma və assimilyasiya (əriyib itmə).

Avrasiyaçılığın potensialı da onun ideologema və ya mifologemalar müstəvisində fikir yürütməsi ilə deyil, real, ciddi problemləri qoymaq, onların həlli yollarını müəyyənləşdirmək və həyata keçirməkdədir.

**5.Müasir dünyada da zaman amili özünü çox kəskin şəkildə göstərməkdədir**

Zamanın paradoksal şəkildə sürətlənməsinə rəğmən baş verən dəyişikliklər adekvat refleksiya, qərar və seçim edilməsini, yəni onların zamanında həllini tələb edir. Əgər buraya uzun illər sovet məkanında yaşanılan durğunluq və nisbi-statik inkişaf tərzini və vərdişlərini də əlavə etsək, dəyişikliklər və onlara münasibət problemi daha aydın təsəvvür edilə bilər. Bu amil Avrasiyanın özəl statusunu və keyfiyyətini şərtləndirmişdir. Burada türkdilli, slavyan, uqro-fin və s. xalqlar vahid sivil məkan daxilində yaşayır. Bu vahid sistem, bütövlük, tarixi taleyin ümumiliyi, inteqrasiya və dialoq proseslərinin təməli, prinsipləri kimi dəyərləri özündə ehtiva edir.

Zaman amilinə müəyyən mifoloji çalarlar xasdır. Başqa sözlə, mədəni, sosial, tarixi, gerçək zaman, bəzi hallarda "mifoloji zamanla" bilərəkdən, yaxud bilməyərəkdən əvəz edilir. "Mifoloji zaman" üçün keçmişin ideallaşdırılması, yaxud utopiya səviyyəsinə keçirilməsi səciyyəvidir. Avrasiya və dünyanın bu günü və gələcəyinə aid olan hər bir mövqe, baxış və ya prinsiplər gerçək, qlobal zaman amilindən çıxış etməklə, klassik və ya müasir Avrasiyaçılığın bəzi istiqamətlərinə xass olan ideoloji-mifoloji məzmun, coğrafi fatalizm, "geosiyasi mistika", bolşevizm və s. kimi qeyri-real çalarlardan uzaqda olduğunu bəyan edə bilər [Бердяев, 1997; Бицилли, 1993].

Müasir zaman müxtəlif mədəniyyətlərin dialoqunu və inteqrasiyanı imperativə çevirmişdir.

Avrasiya məkanında yaşayan xalqların çoxəsrlik milli-mədəni ənənələrinə, dəyərlərə, qarşılıqlı təsir təcrübəsinə söykənən və texnoloji modernləşmə ilə tamamlanan bənzərsiz, fərqli inkişaf yolunun perspektivli sayılması təbiidir. Bu tarixi prosesin çoximkanlılığı və müxtəlifliklərin vəhdəti prinsipi çərçivəsində məqbul hesab edilən elmi qənaətdir.

Dialoqu, sintez və inteqrasiyanı inkişafın əsas yolu və amili kimi görən mütəfəkkir şəxsiyyətlər, dahilər Avropada da, Asiyada da həmişə olmuşdur. Dünyanın, müxtəlif məkanların vəhdəti ilə gözəl və əzəmətli olduğunu, "əzəli xəlq edilmiş harmoniya" fəlsəfəsinin müəllifi V.Leybnis də vurğulamış, xalqlar arasında mədəni-mənəvi dialoq və mübadiləni gücləndirmək üçün "Qərb-Şərq Akademiyalarımın yaradılmasını təklif etmişdi. V.Höte də özünün "Qərb-Şərq divanı'nda yazırdı:

*"Etiraf edin, Şərqin şairləri Bizdən,*
*Qərb şairlərindən üstündür"* [Qöte,2007].

Avropanın müstəsna, "etalon" sivilizasiya modeli olması kimi yanlış meyilə qarşı ilk çıxışlar XIX əsrdən daha qətiyyətlə səslənməyə başladı.

Biz tarix qarşısında böyük xidmətlər göstərən bu şəxsiyyətlərin adlarını sadalaya bilməsək də, onların carçıları olduqları ideyaların sonrakı əsrdə də özünü doğrultduğunu, bu gün XXI əsrdə də çox aktual səsləndiyinin şahidiyik.

Avrasiyanın böyük mədəni və mədəni inteqrativ funksiyasını xüsusi dəyərləndirən klassik "Avrasiya cərəyanı" da məhz tarixin ən mürəkkəb dönəmlərindən birində - XX əsrin əvvəllərində təşəkkül tapdı. Dünyanın ən qanlı müharibə və sarsıntılarının təsadüf etdiyi bu əsrdə həm coğrafi, həm də siyasi baxımdan Avropa dövlətləri münaqişələrin bütün mənalarda episentrini təşkil edirdi. Bu vəziyyət dünyada: həm Avropada, həm də Asiyada, yaxın perspektivdə formalaşacaq ictimai, tarixi-siyasi nizam mənzərəsinin təməlində dura biləcək konseptual əsasların axtarışlarına təkan verdi. Avropa və Asiyanın yalnız geosiyasi məkan deyil, həm də mədəni-tarixi məkan kimi həm qitədə, həm də bütün dünyada ümumi və fərqli inkişaf qanunauyğunluqlarına malik olduğu qızğın müzakirələrin mövzusuna çevrilmişdi. Klassik Avrasiyaçılığın bəzi nəzəri müddəaları, müasir dövrdə "vahid dünya və müxtəlif xalqlar" nizamının formalaşması işində verdiyi cavablardan daha çox, gündəmə gətirdiyi suallarla diqqəti cəlb edə bilər. Məsələn, bir fikri yada salaq: *"Avrasiya məkanı çərçivəsində yaşayan insanlar və xalqlar qarşılıqlı anlaşmanın elə səviyyəsinə, qardaşlıq münasibətlərinin elə formalarına malikdirlər ki, dünyanın başqa yerində buna çətin nail olmaq olar*".

Avrasiyanın mədəni inteqrasiya modeli kimi formalaşmasında dialoq fəlsəfəsi mühüm yer tutur. Dialoq məramı başlanğıc prinsipi kimi vurğulanması bu təsəvvürlərə ən yaxşı cavab və həm də mövqedir. Dialoq - dünya inkişafının əsas meyillərini həm əks etdirə, həm də onu davam etdirə bilən konseptual prinsipidir. Bugünkü qlobal cəmiyyətin təsisatları, bəşəriyyətin qarşısında duran problemlərin həllini tapmağa, onun dayanıqlı inkişaf yollarını müəyyənləşdirməyə çalışmalıdır. Əgər qarşılıqlı təsir gedirsə və bu təsir uğurlu səmtə, məcraya doğru yönəlmirsə, vəziyyət artıq müsbət deyil, mənfi nəticələr verə bilər. Çünki bütövlüyü, tamlığı get-gedə daha da əyaniləşən dünya sisteminin yalnız bir elementi, bir mədəniyyət modeli inkişaf etdirilirsə, bu sivilizasiyanın böhranının başlanğıcıdır. Hər bir ölkənin inkişafı milli və bəşəri, qlobal və lokal aspekt və maraqların vəhdətini nəzərə alaraq davam edərsə, narahatlıq üçün əsas da yaranmaz [Бердяев, 1997].

Dialoq vasitəsilə keçmişin yolları təhlil edilir, indinin problemləri aydınlaşdırılır, gələcəyin əsas meyillər istiqamətinə yönəlməsi təmin edilə bilir.

Avropa və Asiyanın, Qərbin və Şərqin, müxtəlif xalqların dünyagörüş və dəyərlər sisteminin "bir araya sığmaz olması'na dair fikirlər də mövcuddur. Burada R.Kiplinqin "*Qərb qərbdir, Şərq də şərq"* deyimi, yaxud O.Şpenqlerin "*ərəb heç vaxt çinli ola bilməyəcək*" kimi fikirlərini yada salsaq kifayətdir. Dialoqun inkişaf yolu kimi potensialı məhz burada aydın sezilir. Dünyagörüş

və dəyərlər sisteminin bir araya sığmazlığını dramatikləşdirmək qeyri-məqbul yoldur. Bəşəriyyətin uzunmüddətli inkişaf tarixi göstərir ki, əbədi həqiqət və dəyərlərə dair hər bir xalqın mədəniyyətində kifayət qədər ümumi sayıla biləcək fikirlər mövcuddur. Mədəniyyətlərin ümumi mövqeyə, ortaq məxrəcə gəlməsini qeyri-mümkün hesab edən "kultur relyativizm", buradakı böyük intellektual, mənəvi potensialı görə bilməmişdir. Bunun əsas səbəbi də milli və bəşəri qatlar arasında varislik və dialoq kimi faktorların əhəmiyyətinin sezilə bilməməsi olmuşdur. Müxtəlif xalqların dünyagörüşündə, bütün insanların birgəyaşayışını, vəhdətini təmin edə biləcək dəyərlər hökmən mövcuddur. Bır anlığa təsəvvür edək ki, əvvəlki sivilizasiyalarla bizim aramızda heç bir varislik, əlaqə və s. yoxdur və olmamışdır. Hər bir xalq, mədəniyyət öz-özlüyündə qapalı mövcuddur. O.Şpenqlerin tipologiyasındakı "monada-sivilizasiyalar" məhz belə görünürdü. Lakin biz bilirik ki, bu, belə deyil. İnsanlar, sivilizasiyalar arasında bağlılıq və əlaqəni mümkün edən dəyər və amillər bütün mədəniyyətlərdə vardır. Bu dəyərlər həm dəyişən əsrlər və epoxalar üzərindən, həm də konkret tarixi zaman və məkan çərçivəsində körpü rolunu oynayan, keçən əsrlərin də mədəni sistemlərinə münasibətimizi bildirməyə imkan verən, fasiləsizliyi təmin edən ünsiyyət və dialoqdur.

Bir-birindən fərqli düşünən, müxtəlif mədəni dəyərlərə malik olan insanların, yalnız bu fərqlərə görə bir-birini inkar etməsi qeyri-real bir mövqedir. Unutmaq olmaz ki, bu fərqlilik və rəngarənglik yalnız müxtəlif xalqlara və mədəniyyətlərə deyil, eyni mədəniyyət daxilindəki insanlar üçün də xasdır. Məsələn, kim isə həmişə düzgün həqiqəti söyləməyi üstün tutur və ya həqiqət söylədiyini iddia edir və s. Lakin bütün hallarda bənzərsiz münasibətlər, baxışlar, mövqelər, dəyər və təsəvvürlər birgə müzakirə mövzusu ola bilər və olmalıdır. Bəzən hər bir insanın öz qəlbində də müxtəlif hiss, düşüncə və fikirlərin mübarizəsi gedir. Bu, o demək deyil ki, bu fikirlərin biri həqiqi, gərəkli, digəri yalan və gərəksizdir. Müxtəlifliklərin qarşılıqlı təsiri, insan və cəmiyyətə xas olan təbii-obyektiv, ontoloji bir keyfiyyətdir. Ümumiləşdirmə aparsaq, mənsub olduqları mədəniyyətdən asılı olmayaraq, yalnız şər hissi deyil, xeyir hissi də əzəli olaraq bütün insanlar üçün xasdır.

Bəşəriyyətin XXI əsrə gəlib çıxmasını mümkün edən ümumbəşəri və milli dəyərlər, onun sonrakı gələcəyinin də təminatçısı ola bilər. Onların əbədiyaşar potensialı yalnız dialoq və ünsiyyət prosesində üzə çıxa, aşkarlana bilər. Müasir dünyanın bütün intellektual-mənəvi potensialı bu istiqamətdə əlindən gələni edə bilər və etməlidir.

Müasir politoloji ədəbiyyatda, "Avrasiya" mövzusunun, eləcə də Avrasiyaçılığın qatı antiqərb mahiyyətli mövqe, düşüncə tərzi kimi qiymətləndirilməsi cəhdlər fikrimizcə yanlışdır *(Məs: Brzezinski Z. The Grand Chessboard. New-York, 1998; Clover C. Dreams o f Eurasian Heartland. Foreign Affairs, 1999, v.78, №2 və s.).*

Avrasiyanın mədəni inteqrasiya modeli kimi unikal olması, sivilizasiyanın inkişaf yolu və modellərinə dair intellektual, mədəni ictimai bir istiqamət kimi dəyərləndirilməsi daha obyektiv və məqsədəuyğundur. Formalaşmaqda olan yeni dünya düzəni və planetar təfəkkürdə Avrasiyaçılığın da potensialı olmamış deyil. Avrasiya qovşaq sivilizasiya kimi yalnız geosiyasi, iqtisadi deyil, həm də başlıca olaraq özünəməxsus mədəni-mənəvi məkandır. Etiraf edək ki, bu müddəa qloballaşma prosesi ilə əlaqədar olaraq "geosiyasət" anlayışının məzmun və mahiyyətinin böyük dəyişikliklərə uğraması aspektində çox aktualdır. Bu müddəada geosiyasi və iqtisadi sahədə mövcud olan ziddiyyətlər mədəniyyətlərin birbirinə açıqlığı və onların dialoqu müstəvisinə keçir. Mədəniyyətlərin zaman-məkan kontiniumunda dialoqun insan və bəşəriyyətin yaşam tərzinə çevrilməsi səyləri baxımından bu səylər alqışlanmalıdır [Korkmaz, 2022].

Ali mənəvi prinsiplərə əsaslanan, bigəyaşayış normalarının gerçəkləşdiyi qlobal sivilizasiyanın formalaşması bütün dünyadakı insanların, millətlərin, xalqların hamısının əbədi arzusudur. Bu yalnız qlobal səviyyədə qərar qəbul edən ixtiyar sahiblərinin, siyasi liderlərin, transmilli güclərin səlahiyyətində deyildir və ya ən azı belə olmamalıdır. Qloballaşma prosesinin bu gün müşahidə olunan neoliberal Qərb modeli özünün bütün ziddiyyətləri, qalib və məğlub sifətləri ilə tarix qarşısında imtahan verir. Sivilizasiyanın böhranını aradan qaldırmaq üçün, onun ruhunu təşkil edən mədəniyyətlər dialoqda bir araya gəlməli, müxtəlifliklərlə vəhdət arasında ahəng və uyğunluq yaratmağa əzmli olmalıdır. Tarix boyu da, xüsusilə də müasir dövrdə heç bir xalq, ölkə başqalarından təcrid olunmuş, qapalı şəkildə mövcud ola bilməz. Postsovet məkanında baş verən hadisələr də, qloballaşma prosesinin təhlilinin ilk nəticələri də göstərdi ki, yeni dünya nizamının formalaşdırılması, köhnənin dağıdılmasından qat-qat çətindir. Bunlar "Avrasiya" mövzusunda davam edən belə bir ideyanın da həyatiliyini təsdiq etdi ki, dünyada yeni inkişaf yollarının, qarşılıqlı münasibətlərin yeni modellərinin, planetar düşüncə tərzinin təşəkkül tapması, milli, mədəni, mənəvi faktorlar və onların daşıyıcısı olan xalqların yeri və rolu nəzərə alınmadan qeyri-mümkündür. Hər bir xalqın milli xarakterini, mentalitetini, davranış stereotiplərini, tarixi yaddaş və təcrübəsinə həssas yanaşılmadan, yalnız rasional prinsiplər üzərində inkişaf yollarının konseptual modeli qurula bilməz [Пономарева, 1992].

Bəşəriyyət ən uğurlu mədəni inteqrasiya modelinin axtarışındadır. "*Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Coğrafi mövqeyinə görə Azərbaycanın əhəmiyyəti böyükdür. Hesab edirəm ki, onun coğrafi siyasi mövqeyi təkcə bizim özümüzdən ötrü deyil, həm də dünya birliyi üçün əhəmiyyətlidir*". Bu sözlər, Ulu Öndərimiz, Ümumilli liderimiz Heydər Əliyevə məxsusdur. Bəli, Azərbaycan xalqının milli təfəkkürünün formalaşmasında, siyasi, iqtisadi, mədəni həyatında Avrasiya məkanının

böyük təsiri vardır. Azərbaycanın mütəfəkkir şəxsiyyətləri, sabahın inkişaf yollarına dair, türk dünyasının, türkçülüyün ən böyük simaları ilə fikir mübadiləsi və dialoqları, tarixin ən çətin dönəmlərində belə mövcud olmuşdur. Ə.Hüseynzadəni, Z.Göyalpı, C.Əfqanini, İ.Qaspiralı, L.Qumilyov və başqa neçə-neçə millətsevər insanları yada salaq. Avrasiya mədəni inteqrasiya ideyası bu dahi insanların məram və qayəsini davam etdirir. Dialoq-tarixi təcrübəyə dayaqlanaraq, sabahın yolları barədə həm düşünməyə, həm də əməli fəaliyyət göstərməyə çağırır [Feyziyev, 2013; İsmayılov, 2011].

Avropa və Asiyanın qarşılıqlı münasibəti problemi bu gün bəşəriyyət qarşısında özünün ən ciddi, ən kəskin formasında durur. Sabahkı nəsillərin mədəni, ictimai, tarixi taleyinin dayaqlana biləcəyi yeni münasibətlər qurula biləcəkmi? Bu dialoq, inteqrasiya və barışdan bilavasitə asılıdır. Bu gün Avropanın Asiya ilə iqtisadi, siyasi, mədəni, informasiya məkanında yaxınlaşması, inteqrasiya sahəsində ciddi addımlar atılır. Lakin bunu bütün mədəniyyət və sivilizasiya barədə söyləmək olarmı? Məkan qonşuluğunu, yaxınlığını, insanların və mədəniyyətlərin qonşuluğuna çevirmək mümkündürmü? Bu sualları cavablandırarkən biz XX əsrin əvvəllərində olduğu kimi pessimizm əhval-ruhiyyəsinə qapılmaq istəmirik [Хантингтон, 2003].

Avrasiya məkanının üzvü olan dövlətlər öz tarixi borc və missiyalarını mövcud problemlər və onların inkişaf yolları istiqamətində söylənilərək hər bir fikrə ilk öncə Beynəlxalq öhdəliklərə, insan hüquq və azadlıqlarına sədaqət və hörmətlə yanaşmaqla, dialoqa dəvət etməklə yerinə yetirməlidir. Bu məkan da hər bir mədəniyyətin öz sözünü deməsi üçün verildiyi imkan, tribunadır.

*Həyat durduqca, dialoq da vardır. Bir mütəfəkkirin sözləri ilə deyilsə "Avropa və Asiya öz aralarında həyatın dövran etdiyi, dialoqun sonsuz olduğu iki qütbdür".* (Herman Hesse).

**6.Nəticə**

Avrasiyanın inteqrasiyanın məkanı olduğunu tarixin təcrübəsi təsdiqləyə bilər. Avrasiyada müasir dövrün inteqrasiyanın zamanı olduğunu başa düşürlər: bu gün dünyada gedən proseslər özü də bunu təsdiqləyir. Sabahın inkişaf yollarının necə olacağı, məkan və zamanda fasiləsiz davam edəcək inteqrasiya səylərindən, dialoqlardan bilavasitə asılı olacaqdır.

XXI əsrdə Avrasiya mədəni inteqrasiya modeli baş verən qlobal, geosiyasi dəyişikliklər, regional proseslər fonunda yeni məzmun, mahiyyət kəsb edir. Bu gün Avrasiya mədəni inteqrasiya modeli yalnız coğrafi və sivilzasion anlayış deyil, həm də yenidən təşkilatlanma, regional əməkdaşlıq Böyük Türk Dünyasının özünütəsdiq prosesinin ifadəsidir. Bu, türk cümhuriyyətləri arasında mədəni inteqrasiyanın yüksək mərhələyə keçidinin bariz təzahürüdür. Bu proses ortaq türk mədəni irsinə, ümumtürk tarixi taleyinə, milli yiyəlik hissinin formalaşması Asiyanın Şərq və Qərb mədəni körpüsünə çevrilməsini

önə çəkir. XXI əsr Avrasiya mədəni inteqrasiyası qarşısında mədəniyyətdən geosiyasi-yumuşaq güc kimi istifadə olunmasını yeni mədəni inteqrasiya platformasının yaranmasını, mədəni koordinasiyanı yeni mərhələnin çağırışlarına uyğunlaşmasını tələb edir. Avrasiya mədəni inteqrasiya modelini Türk dünyası kontekstində anlamaq üçün türk xalqlarının Avrasiyanın sosial-siyasi strukturunda mədəni interqasiya xəritəsində rolu obyektiv nəzərdən keçirilməli, türk elementinin bu prosesdə dəyəri xüsusi qiymətləndirilməlidir.

## 7.ƏDƏBİYYAT


**1.** Feyziyev, C. (2013). *Türk dövlətləri Birliyi: qlobal inteqrasiyanın Avrasiya modeli*. Bakı: Şərq-Qərb 312 s.

**2.** İsmayılov, M. (2011). *Türkiye və Rusya ekseninde Avrasiyacılık*. Bursa, 274 s.

**3.** Korkmaz, M. (2022). Kavram olaraq Avrasya və Avrasyacılık yaklaşımları ile Avrasya stratejisine bakış. *Avrasya Beşeri Bilim Araştırmaları dergisi, 2*(2), s.88–104.

**4.** Qöte, Y. V. (2007). *H. Hayne lirikası və "Qərb – Şərq Divanı"ndan nümunələr*. Bakı: Adiloğlu nəşriyyatı 100 s.

**5.** Аязбекова, С. (2011). "Культура Евразии" и "евразийская культура". В: *Казахстан и Евразийская идея в новом мире. Сборник докладов Международного научного форума* (Т. 1, с.207–211). Астана.

**6.** Бердяев, Н. А. (1997). Евразийцы. *Панорама-Форум*, № 1, с.25–28. Москва: Панорама-Форум.

**7.** Бицилли, П. М. (1993). Два лика евразийства. В: *Между Европой и Азией: евразийский соблазн* (с.280–290). Москва: Институт философии РАН.

**8.** Ерасов, Б. С. (2002). Антиевразийство и новое евразийство в канун XXI века. В: *Евразийство: проблемы осмысления* (с.15–23). Уфа: Восточный университет.

**9.** Лушников, О. В. (2008). Евразийская идея и ее критики. *Актуальные вопросы современной науки*, № 1, с.17–28. Москва.

**10.** Мещеряков, Н. (1931). Евразийцы. *Большая советская энциклопедия* (1-е изд., Т. 23, с.827–828). Москва.

**11.** Пономарева, Л. В. (1992). «Евразийство»: его место в русской и западноевропейской историко-философской традиции. В: *Евразия. Исторические взгляды русских эмигрантов* (с.3–9). Москва: ИВИ РАН.

**12.** Хантингтон, С. (2003). *Столкновение цивилизаций*. Москва: Издательство АСТ, 603 с.

## REFERENCES

**1.** Feyziyev, C. (2013). *Union of Turkic States: The Eurasian model of global integration*. Baku: Sharq-Garb Publishing House, 312 p. (in Azerbaijani)
**2.** Ismayilov, M. (2011). *Eurasianism in the axis of Turkey and Russia*. Bursa, 274 p. (in Turkish)
**3.** Korkmaz, M. (2022). Eurasia as a concept and approaches to Eurasianism: A view of the Eurasian strategy. *Eurasian Humanities Research Journal, 2*(2), 88–104. (in Turkish)
**4.** Goethe, Y. V. (2007). *Samples from H. Heine’s lyrics and the “West–Eastern Divan”*. Baku: Adiloglu Publishing House, 100 p. (in Azerbaijani)
**5.** Ayazbekova, S. (2011). “Culture of Eurasia” and “Eurasian culture.” In: *Kazakhstan and the Eurasian idea in the new world: Proceedings of the International Scientific Forum* (Vol. 1, pp.207–211). Astana. (in Russian)
**6.** Berdyaev, N. A. (1997). Eurasians. *Panorama-Forum*, No. 1, 25–28. Moscow: Panorama-Forum Publishing. (in Russian)
**7.** Bicilli, P. M. (1993). Two faces of Eurasianism. In: *Between Europe and Asia: The Eurasian temptation* (pp. 280–290). Moscow: Institute of Philosophy of the Russian Academy of Sciences. (in Russian)
**8.** Erasov, B. S. (2002). Anti-Eurasianism and the new Eurasianism on the eve of the 21st century. In: *Eurasianism: Problems of interpretation* (pp.15–23). Ufa: Vostochnyy Universitet Publishing. (in Russian)
**9.** Lushnikov, O. V. (2008). The Eurasian idea and its critics. *Topical Issues of Modern Science*, No. 1, 17–28. Moscow. (in Russian)
**10.** Meshcheryakov, N. (1931). Eurasians. *Great Soviet Encyclopedia* (1st ed., Vol. 23, pp. 827–828). Moscow. (in Russian)
**11.** Ponomareva, L. V. (1992). “Eurasianism”: Its place in Russian and Western European historical-philosophical tradition. In: *Eurasia: Historical views of Russian emigrants* (pp.3–9). Moscow: IVI RAN Publishing. (in Russian)
**12.** Huntington, S. (2003). *The clash of civilizations*. Moscow: AST Publishing House, 603 p. (in Russian)